## 28 May Müstəqillik günü ilə bağlı sitatlar



“Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olmuşdur.”

***

Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!

***

Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur.

***

Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır.

***

Demişəm və indi də deyirəm: həyatımın bundan sonrakı hissəsini xalqa bağışlamışam.

***

Mən həyatımın mənasını xalqıma xidmətdə görürəm. Azərbaycan mənim həyatımın mənasıdır.

***

Mən müstəqil Azərbaycanın dövlətçiliyini, suverenliyini, bütövlüyünü qorumaq üçün həyatımı qurban verməyə hazıram.

***

Bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının öz müstəqilliyini qorumaq əzmindən asılıdır.

***

Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var.

***

Mənim ən böyük qüvvəm, gücüm, ən böyük silahım xalqın mənə göstərdiyi etimaddır, etibardır və xalqın dayağıdır.

***

Mən inanıram, əminəm ki, biz müstəqilliyinin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının Ümummilli Lideri*

"Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika kimi tarixə düşmüşdür və bu, bizim böyük milli sərvətimizdir."

***

Bu gün müstəqil Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir və cümhuriyyət qurucularının arzularını reallığa çevirmişdir

**İlham Əliyev**,
*Azərbaycan Respublikasının Prezidenti*

"28 May bizim milli kimliyimizin, azadlıq və müstəqillik arzularımızın təcəssümüdür."

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Vitse-Prezidenti*

“Milli istiqlalımız xalqımızın ən böyük nailiyyətidir.”

**Səməd bəy Mehmandarov,**
*Hərbi xadim, general*

“İstiqlal uğrunda mübarizə aparmaq hər bir vətəndaşın müqəddəs borcudur.”

***

Bizim üçün bir məqsəd var: o da müstəqil, azad və demokratik Azərbaycan dövlətini dünyaya tanıtmaqdır.

**Əlimərdan bəy Topçubaşov**
*Dövlət xadimi, diplomat*

“Azadlıq uğrunda mübarizə tarix boyu xalqları ucaldan əsas amil olmuşdur.”

**Əhməd bəy Ağaoğlu,**
*Publisist, ictimai-siyasi xadim*

“Azərbaycan xalqı azad yaşamağa layiqdir və bunu sübut etmişdir.”

**Xəlil bəy Xasməmmədov,**
*Dövlət xadimi, hüquqşünas*

“Demokratiya xalqın iradəsinə əsaslanır və bu iradə azadlıq tələb edir.”

**Həsən bəy Ağayev,**
*Siyasi xadim, AXC parlament sədr müavini*

"Azərbaycan istiqlaliyyəti əldə etmək üçün böyük qurbanlar vermişdir."

***

Biz qanımız baha başa gələn azadlığı heç kimə güzəştə getməyəcəyik, müstəqil Azərbaycan yaşayacaqdır!

**Fətəli xan Xoyski,**
*Azərbaycan Xalq Cümhuriyyətinin ilk Baş naziri*

"Millətlərin öz müqəddəratını təyin etməsi ən təbii haqqıdır."

**Nəsib bəy Yusifbəyli,**
*Dövlət xadimi, AXC hökumət başçısı*

"Bir kərə yüksələn bayraq, bir daha enməz!"

***

Azərbaycan ideyası xalqımızın ruhundan, canından qopub gələn bir haqdır; bu haqqı heç bir qüvvə boğa bilməz.

**Məhəmməd Əmin Rəsulzadə,**
*Azərbaycan Xalq Cümhuriyyətinin banisi*

"Cümhuriyyət ideyası xalqın maariflənməsi və inkişafı ilə bağlıdır."

**Üzeyir Hacıbəyli,**
*Bəstəkar, ictimai xadim*

Yüksələn bir millətin bayrağı fəzilət və azadlıqla dalğalanmalıdır.

**Hüseyn Cavid,**
*Şair, yazıçı, dramaturq*

Müstəqillik elə bir nemətdir ki, onu hər gün, hər saat qorumaq, onun uğrunda hər an döyüşə hazır olmaq lazımdır.

**Xəlil Rza Ulutürk,**
*Azərbaycan Respublikasının Xalq Şairi*

M. Ə. Rəsulzadənin yaradıcılığının baş mövzusu Azərbaycandır. Yəni o, məqalə və kitablarının başlığına çıxarıb-çıxarmamasından asılı olmayaraq, bütün əsərlərində Azərbaycanın tarixini, dilini, ədəbiyyatını, ədəbi-mədəni əlaqələrini, xalqımızın mənəvi gücünü, azadlıq eşqini, istiqlaliyyət əzmini tədqiq etmişdir.

**Bəkir Nəbiyev,**
*Akademik*

28 May bizim milli kimliyimizin, dirçəlişimizin və dünyaya açılan azad pəncərəmizin adıdır.

**Məmməd Aslan,**
*Şair*

Cümhuriyyətin bütün müsəlman Şərqində, türk aləmində ilk dəfə məhz Azərbaycan xalqı tərəfindən yaradılması artıq dünya miqyaslı hadisə sayıla bilər. Bu cahanşümul hadisənin də hər il ümumxalq bayramı səviyyəsində keçirilməsinin tarixi əhəmiyyəti şəksizdir.

**Firdovsiyyə Əhmədova,**
*Tarix üzrə fəlsəfə doktoru*

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 95 illiyi ilə əlaqədar olaraq dünən AMEA Naxçıvan Bölməsində "Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzusunda elmi konfrans keçirilmişdir. Konfransı AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirmişdir ki, 1918-ci ilin 28 mayında yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti çox çətin bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, bu dövrdə Azərbaycan dövlətçiliyi üçün vacib olan bir sıra məsələlər həll edilmiş, siyasi və sosial sahədə bir çox islahatlar həyata keçirilmişdir. Akademik qeyd etmişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu daim çıxışlarında qeyd etmiş və xalq cümhuriyyəti dövrü tarixinin araşdırılmasına ciddi diqqət yetirmişdir.

**İsmayıl Hacıyev,**
*Akademik*